Azərbaycan.- 2021.- 16 mart. S. 2.

# Azərbaycanın və İsveçin xarici işlər nazirlərinin görüşü keçirilib



Martın 15-də xarici işlər naziri Ceyhun Bayramovun ölkəmizdə işgüzar səfərdə olan İsveç xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Linde ilə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə hər iki tərəfdən geniş tərkibli nümayəndə heyətləri iştirak edib.

Nazir Ceyhun Bayramov qarşı tərəfi salamlayıb, ölkələrimiz arasında ikitərəfli münasibətlərin bir sıra istiqamətlər üzrə inkişaf etdiyini və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcud olduğunu qeyd edib. O, dövlətlərimiz arasında siyasi dialoqun davamlılığının təmin olunması, yüksəksəviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi, habelə beynəlxalq platformalarda əməkdaşlığın genişləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Nazir bölgədə olan cari vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, Ermənistan tərəfindən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına zidd davranış, o cümlədən Azərbaycan ərazilərinə terrorçu qrupun göndərilməsi, bu ölkənin hərbçilərini mülki geyimdə Azərbaycan ərazilərinə göndərmək cəhdləri, Azərbaycanın onilliklər ərzində işğal altında saxlanılan ərazilərində geniş minalanmanı həyata keçirən Ermənistanın hazırda mina xəritələrini Azərbaycana verməkdən imtina etməsi və digər məsələlər barədə həmkarına məlumat verib.

Nazir Ann Linde Azərbaycan Respublikasının dövlət başçısı ilə çox yaxşı görüşün keçirildiyini və ətraflı müzakirələrin aparıldığını qeyd edib. O, bölgədə mövcud olan cari vəziyyətdə ATƏT-in töhfə verə biləcəyi məsələlərin müəyyən edilməsinin əhəmiyyətini bildirib.

Nazirlər Azərbaycanın ATƏT ilə əməkdaşlığı məsələləri ətrafında fikir mübadiləsi aparıblar. ATƏT-in hər üç ölçüsü üzrə Azərbaycanın təşkilatla əməkdaşlığı, həyata keçirilən layihələr, gələcək planları müzakirə ediblər.

Görüşdə tərəflər habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Daha sonra Azərbaycanın və İsveçin xarici işlər nazirlərinin iştirakı ilə mətbuat konfransı keçirilib.

* * *

Azərbaycan-İsveç münasibətləri bir sıra sahələrdə uğurla inkişaf etməkdədir. Ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlər gündəmdədir. Qarşılıqlı investisiya qoyuluşuna xüsusi diqqət ayrılmalıdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov martın 15-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Nazir qeyd edib ki, Azərbaycan son dövrlərdə alternativ və bərpa olunan enerji mənbələrinin inkişafına xüsusi əhəmiyyət verir. Bu baxımdan İsveç bizim üçün maraqlı ölkədir.

Nazir Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan ATƏT-lə əməkdaşlığı vacib hesab edir. Ermənistanın növbəti təxribatına cavab olaraq ölkəmizin həyata keçirdiyi uğurlu əməliyyatla torpaqlarımız işğaldan azad edildi. Bu isə bölgədə yeni əməkdaşlıqlar üçün imkanlar yaradır. Azərbaycan dövlətlərarası münasibətlərin inkişafında hər zaman maraqlıdır.

* * *

İsveç Azərbaycan ilə münasibətlərə xüsusi əhəmiyyət verir. Qarşılıqlı əlaqələrin inkişafı bir çox sahələrdə uğura rəvac verir.

AZƏRTAC xəbər verir ki, bu sözləri İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Linde Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə martın 15-də baş tutan görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən Ann Linde Azərbaycan ilə İsveç arasında siyasi, iqtisadi-ticarət və mədəniyyət sahələrində əməkdaşlıq üçün imkanların olduğunu söyləyib.

O, qeyd edib ki, 44 günlük müharibədən sonra bölgədə yaranan reallıqlar yeni əməkdaşlıq əlaqələrinin formalaşmasına imkan verir.

* * *

Azərbaycan üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, bütün hərbi əsirləri Ermənistana təhvil verib. Hətta hərbi əməliyyatlar zamanı da Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə əsirlərin qarşı tərəfə verilməsi üçün müvafiq addımlar atılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə xarici işlər naziri Ceyhun Bayramov martın 15-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşünün yekunlarına dair keçirilən mətbuat konfransında bildirib.

“Azərbaycan dövlətinin bu məsələdə mövqeyi çox açıq və aydındır. Biz üçtərəfli Bəyanata uyğun olaraq, hərbi əməliyyatlar zamanı və ondan əvvəl tutulmuş bütün hərbi əsirləri Ermənistan tərəfinə qaytarmışıq”, - deyə nazir qeyd edib.

Ceyhun Bayramov əlavə edib ki, noyabrın 26-da Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Ermənistanın Şirak rayonundan göndərilən silahlı şəxslər hərbi əsir deyillər. Hüquq mühafizə orqanları bununla bağlı araşdırmaları davam etdirir. Hətta bu günlərdə də Ermənistan tərəfi tikinti materiallarının daşınması üçün nəzərdə tutulmuş maşınlarla hərbçilərini işğaldan azad edilmiş ərazilərə göndərməyə cəhdlər göstərir. Bu barədə Azərbaycan BMT Baş Assambleyasını məlumatlandırıb.